## Əmlaka dair hüquqların dövlət qeydiyyatı

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatı sisteminin müasir standartlara uyğun təkmilləşdirilməsi, bu sahədə vətəndaşlara, biznes qurumlarına daha çevik və şəffaf mexanizmlər əsasında xidmətlərin göstərilməsi ilə bağlı müvafiq işlər görülür. Komitədən əldə etdiyimiz məlumata görə, bu tədbirlərdən ən mühümü artıq 2012-ci ilin may ayından başlanan daşınmaz əmlakın qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqidir ki, bu da əmlak bazarında şəffaflığın daha da yüksəlməsinə, bazar iştirakçılarının etimadının artmasına, vətəndaşların əmlaklarını daha rahat və operativ şəkildə dövlət qeydiyyatından keçirmələrinə imkan yaradır. Artıq vətəndaşlar daha asan və rahat şəraitdə, istədikləri vaxtda, heç bir yerə getmədən komitənin www.emdk.gov.az saytında yaradılmış elektron xidmətlər bölməsi vasitəsi ilə yaşayış evləri üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların verilməsi üçün müraciət edə bilirlər. Eyni zamanda, hüquqi və fiziki şəxslər daşınmaz əmlak üzərində hüquqlarının məhdudlaşdırılmasına dair arayışların (Forma 1) alınması üçün də eyni qayda ilə komitənin elektron xidmətlərindən istifadə etmək imkanına malikdirlər.

Qəzetimizə verilən məlumata əsasən, avqust ayı ərzində çıxarışların və arayışların verilməsi ilə bağlı komitəyə 200-ə yaxın elektron müraciət daxil olub. Bu müraciətlərin icrası qanunvericiliyə uyğun olaraq, onlayn rejimində təmin edilib.

Komitədən o da bildirilir ki, vətəndaşların əmlakları üzərində hüquqlarının dövlət qeydiyyatı ilə bağlı daxil olan müraciətlərinə 20 gündən gec olmayaraq baxılır və əmlakın dövlət qeydiyyatı ilə bağlı müvafiq çıxarışlar təqdim edilir. Daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına dair dövlət reyestrindən arayışlar ərazi qeydiyyat idarələri tərəfindən müraciət daxil olduğu gündən 5 iş günündən gec olmayaraq verilir. Əldə etdiyimiz məlumatda cari ilin yanvar-avqust aylarında ölkədə 98 minə yaxın əmlaka aid hüquqların dövlət qeydiyyatına alındığı qeyd olunur. Qeydiyyatdan keçən əmlakların 28 mini ilkin, 70 mini isə təkrar qeydiyyata aiddir. Hesabat ayları ərzində respublika üzrə aparılmış ümumi qeydiyyatın 37 mini (37,4%) Bakı şəhərinin payına düşüb. Yanvar-avqust aylarında 92 minə yaxın daşınmaz əmlakın texniki inventarlaşdırılması aparılıb və texniki pasport tərtib edilib. Bu müddət ərzində hüquqi və fiziki şəxslərə dövlət reyestrindən 71 minə yaxın məhdudiyyət arayışı verilib.

Dövlət əmlakından istifadənin və özəlləşdirmənin səmərəliliyinin artırılması, daşınmaz əmlak idarəçiliyinin və qeydiyyat sisteminin təkmilləşdirilməsi, həmçinin elektron xidmətlərin geniş tətbiq edilməsi, vətəndaşların və biznes qurumlarının daha müasir xidmətlərlə təmin olunması məqsədi ilə ƏMDK beşillik Strateji Planın və birillik Fəaliyyət Planının hazırlanması işlərinə başlayıb. Beşillik Strateji Plan müvafiq xidmətlərin daha etibarlı göstərilməsi, xidmət standartlarının yüksəldilməsi, informasiya texnologiyası strategiyaları, kadr resurslarının inkişafı, texniki planlar, əhaliyə davamlı və qənaətcil xidmətlərin göstərilməsi sahəsində komitədaxili strategiyanın hazırlanmasını əhatə edəcək. Eyni zamanda, insan resurslarının idarə edilməsi və inkişafı, vətəndaşlarla münasibətdə davranışın nizamlanması, peşəkarlığın daha da artırılması ilə bağlı araşdırmalar həyata keçiriləcək. Komitənin dayanıqlı fəaliyyəti üçün investisiyalar, xərclərin planlaşdırılması və büdcə tərtibatı prosesləri, göstərilən xidmətlərin tarifləri üzrə qabaqcıl təcrübələr öyrəniləcək. Beşillik Strateji Planın həyata keçirilməsinin əsas məqsədləri dövlət əmlakının idarəçiliyi və özəlləşdirmənin səmərəliliyinin artırılması, bu sahədə yeni yanaşmalar və mexanizmlərin tətbiqi, dövlət əmlakının özəlləşdirilməsi zamanı keçirilən hərraclarda elektron idarəetmənin tətbiqinin daha da genişləndirilməsi, daşınmaz əmlakın qeydiyyatında xidmət keyfiyyətinin artırılması, kadastr və məkan məlumatları infrastrukturunun, elektron xidmətlərin tətbiqinin genişləndirilməsidir.

AYTƏN